# Müharibənin 40-cı günü: Ermənistan iqtisadiyyatı total iflasın ağuşunda

***Müsahibimiz Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirovdur***

***– Elman müəllim, artıq Vətən müharibəsinin 40- cı gününü yaşayırıq. Müzəffər ordumuz Ermənistanı müharibəni başlamasına peşman edib. Sizin də fikirlərinizi bilmək maraqlı olardı.***

– Bəli, xalqımız 40 gündür ki, müharibənin ağır, lakin qürurverici günlərini yaşamaqdadır. Bu müddət ərzində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistan ordusuna vurduğu maddi ziyanın həcmi 3 milyard dollardan artıqdır. Nəzərə alsaq ki, düşmən döyüşlərdə artıq 8 ədəd S-300 zenit-raket kompleksini (ZRK) itirib və onlardan hər birinin qiyməti 115-160 milyon dollar civarındadır, zənnimizcə, mənzərə tam aydın olar.

Ermənistanın maliyyə naziri Cancuqazyan bir neçə gün öncə bəyan etdi ki, müharibənin hər günü Ermənistan iqtisadiyyatı üçün 30 milyon dollara başa gəlir. Onun hesablamalarına görə, Ermənistan iqtisadiyyatına bu 40 gün ərzində 1 milyard 170 milyon dollar zərər dəyib. Erməni nazir itkilərin miqyasını süni şəkildə kiçiltməyə can atsa da, təkcə yuxarıda qeyd etdiyimiz S-300 ZRK ilə bağlı Ermənistanın üzləşdiyi itkilərin məbləğinin 920 milyondan 1 milyard 280 dollar civarında olduğu danılmaz həqiqətdir.

***– Sizcə, vəziyyətin belə davam etməsinə Ermənistan iqtisadiyyatı davam gətirə biləcəkmi?***

– Əsla yox! Ermənistan iqtisadiyyatının müharibəyəqədərki vəziyyətinin təhlili bu nəticəyə gəlməyə əsas verir. **Əvvəla,** Ermənistanın 2020-ci il hərbi büdcəsi 634 milyon dollardır. Müharibənin 40- cı günündə artıq işğalçı dövlətin təkcə hərbi itkilərinin həcmi 3 milyard dollardan artıqdır. Bu da hərbi büdcədən azı 4,7 dəfə çoxdur.



**İkincisi,** 2020-ci ilin birinci yarısında Ermənistan iqtisadiyyatının onsuz da ağır olan vəziyyəti daha dramatik hal almışdır. Belə ki, həmin dövr ərzində xəzinəyə vergidaxilolmaları 50 faiz aşağı düşmüşdür. İlin sonunadək ölkədə büdcə kəsiri ən optimist proqnozlara görə, 1 milyard dollar təşkil edəcəkdir.

**Üçüncüsü,** 2020-ci ilin iyul ayında Ermənistanın xarici dövlət borcu ölkə tarixinin rekord həddinə – 8 milyard dollara çatmışdır. Bu reallıq fonunda Ermənistanın strateji valyuta ehtiyatları sonuncu dəfə qeydə alınmış 2,6 milyard dollardan 1,5 milyard dollara enmişdir. Lap yaxın günlərdə həndəsi silsilə ilə artan hərbi xərclərin bu “valyuta”nı tam “yeyəcəyi” aksiomdur.

**Dördüncüsü,** “Fitch” beynəlxalq reytinq agentliyi Ermənistanın uzunmüddətli reytinqini aşağı salmışdır və proqnoz vermişdir ki, bu ilin sonuna ölkəni defolt gözləyir.

***– Bir tərəfdən də koronavirus pandemiyası işğalçı ölkəni çökdürüb.***

– Tamamilə doğrudur. Pandemiya Ermənistan iqtisadiyyatının çöküşü prosesinin katalizatorudur. Kiçik və orta biznes məhv olmaq üzrədir. Sahibkarlıq subyektləri iflasa uğrayıb. Yoxsulluq və işsizlik dözülməz hal alıbdır. Ən əsası insanlar “məğlubiyyət sindromu”nun təsiri altında sabahkı günə inamlarını tam itiriblər. Müharibədə biabırçı məğlubiyyət yaşayan, koronavirus pandemiyasının cənginə aldığı bu lənətlənmiş ölkəyə heç bir xarici investorun bir sent belə sərmayə qoymayacağı gün kimi aydındır. Erməni lobbi və diasporunun isə məğlub Paşinyan rejimindən üz çevirəcəkləri və deməli, xarici ianələrin artıq Ermənistanın boş xəzinəsinə axmayacağı başqa bir həqiqətdir.

Bütün bu realıqlar fonunda Prezident İlham Əliyevin oktyabrın 28-də Rusiyanın “İnterfaks” agentliyinə verdiyi geniş və olduqca məzmunlu müsahibəsində səsləndirdiyi fikirlər Ermənistanın siyasi-hərbi rəhbərliyi üçün ciddi siqnal və dərs olmalıdır: “Ermənistan başa düşməlidir ki, o, artıq yolun kənarındadır. Artıq ondan ötrü heç kim vuruşmayacaq. Bəs sonra? Əgər o, bizimlə qarşıdurmaya davam edərsə, əgər bundan sonra da Türkiyəyə ərazi iddiaları irəli sürərsə, başa düşməlidir ki, bizim qarşımızda necə dura bilər. Lakin biz qarşıdurma istəmirik, biz sülh istəyirik, onların bizə və xalqımıza gətirdiyi bütün ağrı-acılara və faciələrə baxmayaraq. Buna görə də düşünürəm ki, geosiyasi reallıqlar müsbət istiqamətdə inkişaf etməlidir. Hər halda biz öz tərəfimizdən hər şeyi edəcəyik ki, bu, belə olsun.”

***Müsahibəni qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 6 noyabr.- S.9.